**Kərim Tahirov**
*M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının direktoru,*
*Əməkdar mədəniyyət işçisi, professor*
*ktahirov@anl.az*
**Ədibə İsmayılova**
*M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının direktor müavini,*
*Əməkdar mədəniyyət işçisi, AMEA-nın doktorantı*
*aismailova@anl.az*

# AZƏRBAYCAN MİLLİ KİTABXANASI VİRTUAL İNFORMASİYA MƏKANINDA

*Məqalədə istifadəçilərin informasiya təminatında xidmətin keyfiyyətini yüksəltmək məqsədilə Milli Kitabxanada tətbiq edilən virtual xidmətlərin fəaliyyətindən, kitabxananın son vaxtlar həyata keçirdiyi elektron layihələrdən bəhs edilir*

***Açar sözlər.*** virtuallıq termini, onlayn pəncərə, E-sənəd, virtual sərgi, virtual metodik vəsait

**Giriş.** Son zamanlar "virtuallıq" termini həyatımıza sürətlə daxil olmuşdur. Virtuallıq (lat. Virtualis-mümkün olan) dedikdə əşyaların, hadisələrin, proseslərin əqli təsəvvür, təxəyyül, qeyri-maddi obraz formasında mövcudluğu və ya real olaraq mövcud olmayan, lakin müəyyən şəraitdə yarana bilən obyekt, yaxud vəziyyət başa düşülür. Son dövrlərdə kitabxanaların səmərəli fəaliyyət göstərməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, fondların zənginləşdirilməsi məqsədilə imzalanmış bir sıra xüsusi əhəmiyyətli sənədlərin icrası nəticəsində kitabxana-informasiya sahəsində yeni texnologiyalar tətbiq edilmiş, müasir kitabxana-informasiya infrastrukturu yaradılmış və istifadəçilərə göstərilən xidmətlərin sayının və keyfiyyətinin artırılması, əhalinin intellektual potensialının, bilik səviyyəsinin inkişafı, habelə fasiləsiz təhsilin təmin edilməsi üçün əlverişli zəmin yaradılmışdır.

**Əsas hissə.** M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası (AMK) "Elektron hökumət" Konsepsiyasının icrası ilə əlaqədar oxuculara kitabxana-informasiya xidmətinin elektronlaşdırılması, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, virtual xidmət üçün müvafiq infrastrukturun və proqram təminatının yaradılması istiqamətində bir sıra kreativ yönlü layihələr həyata keçirmişdir. Məhz bu tədbirlərin icrası nəticəsində istifadəçilərə onlayn rejimdə informasiya-biblioqrafiya xidmətləri göstərilməsi üçün real şərait yaranmışdır. Kitabxananın müasir kompüter avadanlıqları ilə təchiz edilməsi, kitabxana işinin ənənəvi formalarının elektronlaşdırılması və mütəxəssislərin informasiya mədəniyyətinin artırılması internet üzərindən məsafədən informasiya resurslarına əlyetərliyin təmin edilməsinə şərait yaratmışdır.

Milli Kitabxanada son on il ərzində xidmət sahəsində çox böyük işlər görülmüş, mühüm nailiyyətlər əldə olunmuşdur. Kitabxanada elektron kataloq və elektron kitabxana, elektron məlumat bazaları, virtual sərgilər, müxtəlif me-

todik və biblioqrafik nəşrlərin, daycestlərin virtual məkanda təqdimatı kimi müxtəlif innovativ metodlardan istifadə böyük əhəmiyyət kəsb etmişdir.

İstifadəçilərin informasiya təminatında xidmətin keyfiyyətini yüksəltmək məqsədilə tətbiq edilən ən əhəmiyyətli və kreativ iş formalarından biri də informasiya təminatında zaman və məkan problemini aradan qaldırmağa geniş imkanlar açan virtual xidmət iş formasıdır. Azərbaycanda virtual xidmətin əsası 2008-ci ildə Azərbaycan Milli Kitabxanasında Rusiya Dövlət Kitabxanasının (RDK) Elektron Dissertasiya Fondunun virtual oxu zalının açılışı ilə qoyulmuşdur. Bununla mütəxəssislərdən və elmi tədqiqatçılardan ibarət minlərlə oxucularımız RDK-nın Elektron Dissertasiya fondunda mühafizə olunan 1 milyona yaxın dissertasiyaların elektron bazasına birbaşa giriş imkanı əldə etmişlər. Bu vaxta qədər hər il yüzlərlə mütəxəssislərimiz Moskvaya gedərək kifayət qədər zaman itirərək və vəsait xərcləyərək aylarla orada qalmaq məcburiyyəti ilə qarşılaşırdılar. Həmin ildə AMK-nın strukturunda yeni "Elektron dissertasiya fondunun təşkili və ondan istifadə" şöbəsi yaradılmış və 1993-cü ildən Azərbaycanda müdafiə olunan disssertasiyaların elektron bazasının yaradılması işlərinə başlanılmışdır. Hazırda bu fondda mühafizə olunan 12198 dissertasiya tam olaraq rəqəmsallaşdırılmış və elektron bazada toplanmışdır. Bu gün AMK-nın elektron dissertasiya fondundan istifadə edən oxucuların sayı 40 000 nəfərdir. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası ilə müdafiə olunan dissertasiyaların elektron versiyalarının 2020-ci ildən Milli Kitabxanaya verilməsi barədə razılıq əldə olunmuşdur.

Ölkəmizdə ilk dəfə olaraq 2016-cı ildə AMK-da elektron kataloqla elektron kitabxananın bir bölmədə birləşdirilməsi həyata keçirilmiş və kitabxananın saytında (anl.az) "Elektron kataloq və Elektron kitabxana" bölməsində istifadəçilərə təqdim olunmuşdur. Bu bölmədə eyni zamanda oxuculara "onlayn oxu" düyməsi vasitəsilə elektron versiyası olan və müəllif hüquqları icazə verən materiallardan virtual olaraq istifadə etmək imkanı yaradılmışdır. Həmçinin AMK-da ilk dəfə olaraq dövri mətbuat materiallarının analitik elektron məlumat bazasının elektron kitabxananın vahid bazasında birləşdirilməsi də həyata keçirilmişdir. Hazırda elektron kataloq vasitəsilə hər hansı mövzu üzrə axtarış aparılarkən müvafiq mövzu üzrə bütün materiallar tapılaraq onlayn rejimdə istifadəçilərə təqdim olunur. "Onlayn oxu" düyməsi vasitəsilə kitabxanamızın toplu elektron resurslarından virtual istifadə əmsalı orta hesabla ayda 400000 nüsxə təşkil edir.

Bu gün dünyada pandemiya şəraiti ilə əlaqədar tətbiq olunan bir sıra məhdudiyyətlər kifayət qədər elektron resurs bazalarına malik olan milli kitabxanalarda virtual xidmətlərdən yararlanan istifadəçilərin sayının xeyli artmasına səbəb olmuş, elektron resursların dünyanın dörd bir tərəfində yaşayan istifadəçilər üçün əlyetərliyinə şərait yaratmışdır.

2020-ci il bütün dünyanı bürüyən yeni koronavirus (COVID-19) infeksiyası ölkəmizdə də insanlar üçün böyük çətinliklər yaratmış, əhaliyə ictimai yerlərə getməmək, mümkün olduğu qədər evdə oturmaq tövsiyə olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən qabaqlayıcı tədbirlər çərçivəsində məktəblər, kitabxanalar, muzeylər, teatrlar, konsert salonları bağlanmışdır. İnfeksiyanın yayılmasının qarşısını almaq məqsədilə bir çox müəssisələr müvəqqəti olaraq bağlansalar da, öz fəaliyyətlərini onlayn rejimdə davam etdirirlər. Ölkə Prezidentinin "Evdə qal, özünü qoru" çağırışına səs verərək Milli Kitabxananın kollektivi də Mədəniyyət Nazirliyinin "Evim, mənim yeni iş yerim" layihəsinə qoşularaq onlayn rejimdə oxuculara xidmət göstərir. Koronavirus (COVID-19) infeksiyasının qarşısını almaq məqsədilə mart ayının 11-dən etibarən Milli Kitabxananın qapıları oxuculara bağlansa da, bu çətin günlərdə kitabxananın əməkdaşları oxucularının yanında olaraq onlara virtual rejimdə xidmət göstərirlər.



Respublikamızda yaranan şəraitlə əlaqədar Milli Kitabxana qısa zaman kəsiyində istifadəçilərə kitabxana-informasiya xidmətini virtual rejimdə təqdim etmək üçün xidmət miqyasını genişləndirərək, kitabxananın saytında yeni "Onlayn xidmətlər" pəncərəsi yaratmışdır. Onlayn xidmətlər pəncərəsinin "Biblioqrafik sorğu", "Sənədlərin sifarişi və elektron çatdırılması", "Metodiki xidmət","Virtual sərgi" bölmələri daim aktivdir və istifadəçilərin elektron informasiya tələbatının ödənilməsində böyük əhəmiyyət kəsb edir. Bu pəncərənin "Sənədlərin sifarişi və elektron çatdırılması" bölməsi vasitəsilə oxucular tərəfindən sifariş olunan resursların onların elektron ünvanlarına göndərilməsi təmin olunur. Milli Kitabxananın 2020- ci il hesabatlarına əsaslanaraq qeyd edə bilərik ki, pandemiya dövründə (2020-ci ilin mart-noyabr ayları) kitabxanada "Sənədlərin sifarişi və elektron çatdırılması" bölməsi vasitəsilə istifadəçilərə 75523 resurs göndərilmişdir. Bunlardan 30 868 resurs E-kitabı, 4353 resurs E-dövri mətbuatı, 39691 resurs tammətnli E-məqaləni, 353 resurs E-not materiallarını, 7 resurs E-not əlyazmasını, 223 resurs E-avtoreferatı, 28 resurs isə E-xəritəni əhatə edir. Pandemiya dövründə kitabxananın elektron resurslar bazasında mövcud olmayan materiallarla da istifadəçilərə xidmət işi həyata keçirilir. Belə ki, "Onlayn xidmətlər" pəncərəsi və eləcə də kitabxananın elektron ünvanı vasitəsilə daxil olan sorğular əsasında elektron bazada axtarış aparılır və elektron versiyası olmayan bütün materiallar kitabxananın əməkdaşları tərəfindən bilavasitə kitabxanada rəqəmsallaşdırılaraq müəllif hüquqlarının qorunması təmin olunmaqla oxucuların elektron poçt ünvanlarına göndərilir. Pandemiya şəraitinin hökm sürdüyü son 8 ay ərzində bu yolla 12981 resurs rəqəmsallaşdırılaraq oxucuların elektron poçt ünvanlarına göndərilmişdir.

Qeyd etmək lazımdır ki, son 8 ay ərzində Azərbaycan Milli Kitabxanası bir neçə onlayn elmi konfranslarda iştirak etmişdir və təcrübə mübadiləsi zamanı məlum olmuşdur ki, virtual informasiya-biblioqrafiya xidmətinin bu forması heç bir dünya milli kitabxanasında tətbiq olunmamışdır və bütün iştirakçıların diqqətini çəkmişdir.

Pandemiya dövründə (2020-ci ilin mart-noyabr ayları) "Sənədlərin sifarişi və elektron çatdırılması" bölməsi vasitəsilə istifadəçilərə göndərilən sənədlərin növlər üzrə miqdarı, sahələr və dillər üzrə təsnifatı aşağıdakı cədvəl və diaqramlarda öz əksini tapmışdır:

***Pandemiya dövründə "Sənədlərin sifarişi və elektron çatdırılması" bölməsi tərəfindən istifadəçilərə göndərilən sənədlərin növlər üzrə miqdarı (2020-ci il mart-noyabr ayları üzrə)***

| Cəmi | E-Kitab | E-dövri mətbuat | | E-tammətnli məqalə | E-not | E-not əlyazması | E-avtoreferat | E-xəritə |
|---|---|---|---|---|---|---|---|---|
| | | Qəzet | Jurnal | | | | | |
| 75523 | 30 868 | 2755 | 1598 | 39691 | 353 | 7 | 223 | 28 |




| E-sənəd verilişi | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi | Təbiət elmləri | Texnika.Texnika elmlər | Kənd və meşə təsərrüfatı | Səhiyyə. Tibb elmləri | Dilçilik,Arxeologiya,Sosiologiya,Etika,Estetika,Antropologiya | Tarix | İqtisadiyyat, İqtisadi elmlər | Siyasət.Hüquq.Hərb elmı | Mədəniyyət.Elm.Maarif | Filologiya elmləri. Bədii ədəbiyyat | İncəsənət. Sənətşünaslıq | Din.Fəlsəfə. Psixologiya | Universal məzmunlu ədəb. |
| 75523 | 1800 | 4012 | 2212 | 815 | 10600 | 4902 | 9200 | 8300 | 1905 | 10200 | 3200 | 8010 | 10367 |

***Pandemiya dövründə "Sənədlərin sifarişi və elektron çatdırılması" bölməsi tərəfindən istifaçilərə göndərilən sənədlərin sahələr üzrə təsnifatı (2020-ci il mart-noyabr ayları üzrə)***



***Pandemiya dövründə "Sənədlərin sifarişi və elektron çatdırılması" bölməsi tərəfindən istifaçilərə göndərilən sənədlərin dillər üzrə təsnifatı (2020-ci il mart-noyabr ayları üzrə)***

| E-sənəd verilişi | | | |
|---|---|---|---|
| Cəmi | Azərbaycan dilində | Rus dilində | Digər dillərdə |
| 75523 | 59504 | 12200 | 3819 |




Xüsusi karantin rejimi dövründə Milli Kitabxananın virtual xidmət sistemində zəngin tammətnli elektron resurslara malik olan "Elektron kataloq və elektron kitabxana" bölməsinin "onlayn oxu" düyməsindən 2 996 278 nəfər istifadə etmişdir. Bütövlükdə (anl.az) saytına daxil olanların sayı isə müvafiq dövrdə 3605400 nəfər olmuşdur. Kitabxananın pandemiya dövründə virtual rejimdə xidmət göstərən "Metodiki xidmət" və "Biblioqrafik sorğu" bölmələrinin fəaliyyəti də yüksək qiymətləndirilməlidir. Milli Kitabxana hər il biblioqrafik və metodik vəsaitlər, informasiya göstəriciləri, məlumat nəşrləri hazırlayıb kitabxana ictimaiyyətinə, oxucularına təqdim etməklə onların mütaliəyə marağının artırılmasına kömək edir və öz sahələri üzrə istiqamətlənmələrində, axtarışlarının operativləşdirilməsində əhəmiyyətli rol oynayır. Vəziyyətlə əlaqədar il ərzində Milli Kitabxananın metodik nəşrləri virtual rejimdə təqdim olunub. Azərbaycan Milli Kitabxanası ölkənin bütün kitabxanaları üçün metodik mərkəz funksiyasını həyata keçirərək tövsiyələrini kitabxanaçılara onlayn rejimdə təqdim edib.

Pandemiya dövründə bölməyə respublikamızın şəhər və rayonlarında fəaliyyət göstərən Mərkəzləşdirilmiş Kitabxana Sistemlərindən gün ərzində onlarla sifariş daxil olmuş və bu sifarişlərin ödənilməsi bölgələrdə oxuculara

kitabxana-informasiya xidmətinin davamlılığını təmin etmiş, onlara verilən rədd cavablarının qarşısını almışdır. Pandemiya dövründə (2020-ci il mart – noyabr ayları)"Sənədlərin sifarişi və elektron çatdırılması" bölməsi vasitəsilə MKS-rə 1952 elektron resurs göndərilmişdir.Kitabxananın virtual rejimdə fəaliyyət göstərən "Biblioqrafik sorğu" bölməsinə müxtəlif mənbələrdən 55000 sorğu daxil olmuşdur. Yerli və xarici təşkilatlardan daxil olan sorğular biblioqraflarımız tərəfindən mütəmadi olaraq cavablandırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə elan edilən "Könüllülər ili" ilə əlaqədar Milli Kitabxananın nəzdində fəaliyyət göstərən Açıq kitabxananın "Könüllülər qrupu" insanların ev şəraitində səmərəli vaxt keçirmələri üçün maraqlı kitabların linklərini, video görüntülərini və xülasələrini kitabxananın "Facebook" səhifəsi vasitəsilə onlayn şəkildə oxuculara təqdim etmişlər. Onu da qeyd edək ki, bu təşəbbüs oxucular tərəfindən çox bəyənilir. Onlar hətta oxumaq istədikləri kitabları bu gün artıq bizə sosial şəbəkələr vasitəsilə yazırlar. Koronavirus dövründə kitabxana resurslarının sosial şəbəkələrdə təqdim edilməsi isə kitaba, mütaliəyə olan marağı daha da artırmışdır. Milli Kitabxananın nəzdində fəaliyyət göstərən Açıq Kitabxananın "Könüllülər qrupu" tərəfindən kitabxananın rəsmi "Facebook" səhifəsində daha maraqlı və oxunaqlı olan 559 kitabın elektron versiyası oxuculara təqdim olunmuşdur.

Azərbaycan Milli Kitabxanası istifadəçilərin elektron-informasiya tələbatını ödəmək məqsədilə daim yeni layihələr həyata keçirir, kreativ iş formalarından istifadə edir. Bu mənada "Elektron virtual sərgi" layihəsi xüsusilə diqqəti cəlb edir. Kitab sərgilərinin təşkili kitabxana fəaliyyətinin mühüm istiqaməti olub, kitabxana-informasiya xidmətinin inkişafına təsir göstərir, çünki kitabxanaçının kitab təqdim etmək qabiliyyəti və ümumiyyətlə, kitabxana haqqında ilk təəssürat oxucuda kitab sərgiləri ilə tanış olarkən formalaşır. Yeni texnologiyalardan faydalanma imkanları kitabxana xidmətinin qədim ənənəvi formasına da innovasiyaların tətbiqini stimullaşdırır. Bu gün Milli kitabxanada virtual sərgilərin təşkili, onların işlənməsi üçün proqram təminatının, multimedia vasitələrinin, formaların, yeniliklərin növlərinin tapılması sərgi işinin daha səmərəli şəkildə inkişafına imkan yaradır. Virtual sərgi distant istifadəçi üçün internet şəbəkəsində onlayn xidmət növü kimi nəzərdən keçirilir, yəni kitabxanaya gəlməyən, onun xidmətlərindən məsafədən yararlanan, kompüterdən ayrılmadan müəyyən informasiya xidmətindən istifadə etmək arzusunda olan istifadəçi üçün nəzərdə tutulur.

Kitabxananın xüsusi seçilmiş və sistemləşdirilmiş elektron sənədlər toplusunu, onlar haqqında məlumatları özündə əks etdirən, informasiya resurslarını aşkarlayan və reklam edən virtual sərgilər istifadəçilərin informasiya tələbatının ödənilməsində böyük rol oynayır. Virtual kitab sərgiləri müasir dövrdə ən geniş yayılmış və istifadəçilər tərəfindən arzu olunan xidmət növlərindən biridir. Kitabxana fondunda olan tammətnli resurslara, internet resurslarına, biblioqrafik göstəricilərə, qrafik təsvirlərə və digər əlavə materiallara istinad etməklə tərtib olunan virtual sərgilər müəyyən mövzular üzrə zəruri informasiya



axtarışı üçün vaxt itkisinin qarşısını alır. Fərəhləndirici haldır ki, Milli Kitabxananın tərtib etdiyi virtual sərgilər və elektron məlumat bazaları Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən əhəmiyyətli dərəcədə qiymətləndirilərək onların linkləri geniş təbliğ olunmaq məqsədilə mütəmadi olaraq xarici ölkələrdəki səfirliklərimizə göndərilir və onlar tərəfindən geniş şəkildə istifadə olunur. Virtual sərgilər vasitəsilə Milli kitabxananın elektron resurslarını təqdim etməklə biz yeni çoxfunksiyalı informasiya resursunun geniş istifadəçilər dairəsinə təqdim edilməsi üçün ənənəvi kitab və ən yeni elektron üsulların sintezini əldə etmiş oluruq. Qeyd edək ki, pandemiya dövründə ( mart-noyabr aylarında) Milli Kitabxana tərəfindən əlamətdar və tarixi hadisələrə və görkəmli şəxsiyyətlərə dair 40 adda elektron virtual sərgi tərtib edilərək istifadəçilərin ixtiyarına verilimişdir. Cəmiyyətimizin milli mənlik şüurunun inkişaf etdirilməsində, onlarda vətənpərvərlik hisslərinin artırılmasında təbliğatın, maarifləndirici tədbirlərin əhəmiyyəti böyükdür. Vətənpərvərlik insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdən olduğundan onun böyüməkdə olan nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi həmişə vacib məsələlərdən biri olmuşdur. Buna görə də Ulu Öndər, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyev vətənpərvərlik tərbiyəsinə, uşaq və gənclərin vətənpərvər ruhda böyüməsinə xüsusi əhəmiyyət vermiş və bunu çıxışlarında dönə-dönə tövsiyə etmişdir: *"Vətən müharibəsi bütün xalqın, hər bir vətəndaşın öz şərəf və namusunu qorumaq üçün aparılan müharibədir", "Gərək nəbzin Vətənin nəbzi ilə vursun...".* Ulu Öndərin söylədiyi bu fikirlər həmişə dəyərli olmuşdur və xalqımızı, millətimizi daha xoşbəxt gələcəyə səsləyir.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatlarına başladı. Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi uğrunda gedən döyüşlər, qüdrətli ordumuzun şanlı tarix yazaraq düşmən üzərindəki sarsıdıcı zərbələri, eləcə də bir sıra mühüm əhəmiyyətli şəhərlərimizin, yaşayış məntəqələrimizin, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəkliklərin işğalçılardan azad edilməsi xalqımızda böyük inam və ruh yüksəkliyi yaratdı. Milli Kitabxana müstəqil dövlətimizin suverenliyi və ölkəmizin ərazi bütövlüyü üçün tarixi əhəmiyyət kəsb edən son dövrlərdə müzəffər ordumuzun zəfər yürüşünə dəstək olaraq cəmiyyətdə vətənpərvərlik ruhunun yüksəldilməsi, uzun illər işğal altında qalan, dağıdılıb talan edilən tarixi-mədəni irsimizin dünyaya tanıdılması məqsədilə resurslarını maksimum dərəcədə istifadəçilərə yaxınlaşdırmaq üçün böyük səy göstərdi. Kitabxanada Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə təqdim etmək üçün tariximizə, mədəniyyətimizə, daxili və xarici siyasətimizə, Dağlıq Qarabağ məsələsinə və digər mühüm sahələrə dair elektron virtual sərgilər, elektron məlumat bazaları hazırlanaraq bütün dünyaya yayımlandı. Qısa zaman kəsiyində kitabxanada "Qarabağ Azərbaycandır!", "Qarabağ abidələri", "Qarabağ xalq sənətkarlığı", "Qarabağ geyimləri", "Qarabağ xalçaları" adlı elektron sər-

gilər Azərbaycan və ingilis dillərində hazırlanaraq virtual rejimdə təqdim edildi. Təqdim olunan sərgilərdə Qarabağ bölgəsinin tarixi abidələri, Qarabağın milli geyimləri, qədim xalçaçılıq sənəti, zərgərlik nümunələri, qədim türk musiqi alətləri və onlar haqqında məlumatlar, fotolar, Qarabağda daş işləmə, dulusçuluq, metalişləmə, toxuculuq, təsviri sənət və digər sənət növlərinə dair materiallar xüsusi yer tutur. Eyni zamanda Qarabağ haqqında Azərbaycanın görkəmli şəxsiyyətlərinin fikirləri, Qarabağın tarixini, Qarabağ həqiqətlərini əks etdirən kitablar, məqalələr, mədəni irs nümunələri, həmin bölgənin görkəmli şəxsiyyətləri haqqında materiallar da təqdim olunur. Sərgilərdə nümayiş olunan sənədlər tam mətnləri ilə verilir.

**Nəticə.** Kitabxanada virtual yolla istifadəçilərə təqdim edilən sənəd-resurs toplularından tammətnli elektron məlumat bazalarını da qeyd etmək olar. Son günlər Milli Kitabxanada həyata keçirilən elektron layihələrdən biri də vətənpərvərlik mövzusunda Elektron məlumat bazalarının hazırlanması olmuşdur. Yeni informasiya texnologiyalarının mənimsənilməsi və tətbiqi nəticəsində Milli Kitabxananın iş təcrübəsində Elektron məlumat bazalarının yaradılması geniş miqyas almışdır. Bu gün erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında həlak olmuş qəhrəmanlarımızın ibrətamiz həyatı, şəxsi nümunəsi, apardığımız hərbi vətənpərvərlik tərbiyəsi elektron məlumat bazalarının əsas mövzusuna çevrilmişdir. Milli Kitabxananın hərbi-vətənpərvərlik mövzusunda hazırladığı "Vətənimdir Azərbaycan", "Qarabağ müharibəsi", "31 Mart Azərbaycanlıların Soyqırımı Günü", "Xocalı", "20 Yanvar qan yaddaşımız", "Aprel döyüşləri bizim şanlı qələbəmizdir", "Azərbaycanın Milli qəhrəmanları", "26 İyun Milli Ordu Günüdür", "Azərbaycan əsgəri", "Qarabağ - Şuşa həsrəti", "18 Oktyabr Milli Müstəqillik Günü" adlı elektron məlumat bazaları Vətən uğrunda döyüşən, şəhid olan döyüşçülərimizi tanıtmaq və unutmamaq üçün təqdim olunan bir layihədir.

Milli Kitabxanada Qarabağ mövzusu ilə əlaqədar Qarabağın görkəmli şəxsiyyətlərinə həsr olunan elektron məlumat bazaları da mühüm əhəmiyyət kəsb edir. Bu məlumat bazalarında Qarabağın görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətinə, yaradıcılığına dair tammətnli resurslar, rəsmi sənədlər, fotolar, xatirələrinin əbədiləşdirilməsi üçün materiallar təqdim olunur. Kitabxanada "Üzeyir Hacıbəyli", "Əbədiyaşar sənətkar Bülbül", "Əbdürrəhim bəy Haqverdiyev", "Əhməd bəy Ağaoğlu", "Molla Pənah Vaqif" və digər görkəmli şəxsiyyətlərə dair elektron məlumat bazaları hazırlanmışdır.

Təqdim olunan elektron virtual sərgilər və elektron məlumat bazaları uzun müddət və hətta daim fəaliyyət göstərə bilər. Hətta tammətn imkanı ilə həm kitabxananın özündə, həm də internet şəbəkəsində kitab axtarış sistemlərinə istinadlar yerləşdirərək istifadəçini digər resurslara yönləndirmək mümkün sayılır. Elektron layihələrin kitabxananın saytında yerləşdirilməsi, həmçinin linklərinin digər saytlarda, bloqlarda, sosial şəbəkələrdəki səhifələrdə reklam edilməsi potensial istifadəçilərin sayını artırmağa imkan yaradır. Milli Kitabxananın elektron layihələrində mütəmadi olaraq istifadə olunan materiallar yenilənir və təqdim edilir.



**İstifadə olunmuş ədəbiyyatın siyahısı**


1. Tahirov, K.M. Dünya milli kitabxanaları. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası. Dərs vəsaiti. / K.M.Tahirov. – Bakı: Bakı Universiteti Nəşriyyatı, – 2013. – 212 s.
2. Tahirov, K. Milli Kitabxananın inkişafının əsas istiqamətləri-gələcəyin çağırışları //Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri, metodik və təcrübi jurnal.-2020.- № 1 (46).- S.25-32.
3. İsmayılova, Ə. Milli Kitabxana fəaliyyətini virtual rejimdə davam etdirir//Azərbaycan.-2020.- 19 aprel.- S.6.
4. İsmayılova, Ə. Kitabxanaçı əməyi – vətənpərvərlik ruhu // Azərbaycan. – 2020. – 1 noyabr. – S.7.
5. İsmayılova, Ə.İ. Oxuculara xidmətin əsas istiqamətləri, innovativ yeniliklərin tətbiqi təcrübəsi (Azərbaycan Milli Kitabxanasının təcrübəsi əsasında) / Ə.İ.İsmayılova. – Bakı: Azərbaycan Milli Kitabxanası, – 2016. – 56 s.
6. İsmayilova, A. On the activity of the Azerbaijan National Library during the new Coronavirus (covid-19) pandemic /Adiba İsmayilova // IFLA Metadata Newsletter. –Vol. 6, N 1( 2020).- p.7-8.
7. Свергунова, Н. Библиотеки в блогосфере: Современный тенденции; Библиотечно-информационная деятельность / Наталя Свергунова // Научные и технические библиотеки.- 2019.- №4.- С.28-36.


**Карим Тахиров, Адиба Исмайлова**

**Национальная Библиотека Азербайджана в виртуальном информационном пространстве**

**Резюме**

В статье рассказывается о деятельности виртуальных услуг, реализованных в Национальной библиотеке с целью повышения качества услуг по предоставлению информации пользователям, об электронных проектах, осуществленные библиотекой за последнее время.

***Ключевые слова:*** термин виртуальности, онлайн-окно, электронный документ, виртуальная выставка, виртуальное методическое пособие

**Karim Tahirov, Adiba Ismailova**

**Azerbaijan National Library in the virtual information space**

**Summary**

The article gives information about virtual services implemented in the National Library in order to further improve the quality of service in information provision of users, as well as about the recent e-projects carried out by the library.

***Keywords:*** the term virtuality, online window, e-document, virtual exhibition, virtual methodical aids

**Rəyçi:** p.ü.f.dok.,dos.N.İ.İsmayılov